

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 213 (23.375)

*13 noyabr 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri Sultan bin Səid əl-Mansurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev deyib ki, əlaqələr olduqca müsbət məcrada inkişaf edir. Siyasi əlaqələr çox güclüdür. Bizim beynəlxalq təşkilatlarda çox yaxşı qarşılıqlı dəstəyimiz var, biz hər zaman bir-birimizi dəstəkləyirik. Ticarət dövriyyəmizdə yaxşı nəticələr var.

Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf dinamikasının önəmi vurğulanıb, sərmayə qoyuluşu, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edilib, Bakıda keçiriləcək Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın növbəti iclasının bu əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayonlarının icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul edib.



## Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
2. "Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin strukturu" təsdiq edilsin (əlavə olunur).
3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 noyabr 2019-cu il*

## R.A.İsmayılovun Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin rəisi təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramin Abasət oğlu İsmayılov Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin rəisi təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 12 noyabr 2019-cu il*

## Naxçıvanda Dövlət Bayrağı Gününə həsr olunmuş iməcilik keçirilib





Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il 9 noyabr tarixli Qərarı ilə bayrağımız qəbul edilmişdir. Lakin cümhuriyyətin süqutundan sonra üçrəngli bayrağımız Azərbaycanda ilk dəfə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Ali Məclisin sessiyasında qaldırılmış və Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilmişdir. Həmin dövrdə dahi şəxsiyyət Naxçıvanda müstəqil dövlətçiliyimizin əsaslarını yaratmaqla yanaşı, həm də bütün çətinliklərə baxmayaraq təbiətin qorunması qayğısına qalmışdır. Bu gün də muxtar respublikada təbiətin zənginləşdirilməsi və yaşıllıqların artırılması sahəsində ardıcıl tədbirlər görülür.

Noyabrın 9-da muxtar respublikada Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününə həsr olunmuş iməcilik keçirilmiş, Naxçıvan şəhərində yeni badam bağı salınmışdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmişdir.

Məlumat verilmişdir ki, bu ilin payız əkini dövründə muxtar respublikada 300 hektara yaxın sahədə meyvə bağları və yaşıllıq zolaqları salınacaq, bərpa əkinləri aparılacaqdır. Əkin zamanı 125 mindən artıq müxtəlif meyvə və meşə tinglərindən istifadə olunacaqdır.

Yeni salınan badam bağı 55 hektardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri ərazinin 15 hektarında 3 mindən artıq badam tingi əkmişlər.

Ali Məclisin Sədri mövsüm ərzində badam bağında əkin işlərinin başa çatdırılması və yaşıllaşdırma tədbirlərinin davam etdirilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

Həmin gün muxtar respublikada keçirilən iməciliklərdə, ümumilikdə, 22 mindən artıq sakin iştirak etmiş, 30 hektar yeni meyvə bağı və yaşıllıq zolağı salınmış, 6 hektarda bərpa əkini aparılmış, 20 mindən artıq müxtəlif meyvə və meşə tingi əkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 8 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti haqqında ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1. Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti (bundan sonra - Xidmət) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 4 noyabr tarixli 411-05/S nömrəli Sərəncamına əsasən yaradılmışdır.

2. Xidmət muxtar respublikaya idxal edilən təbii qazın qəbul edilməsi, nəqli, paylanması və satışı sahəsində (bundan sonra-müvafiq sahədə) dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

3. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

4. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

5. Xidmət müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştampa və blanka malikdir.

6. Xidmətin aparatının, qurumlarının saxlanması və maddi-texniki təminatı xərcləri təbii qazın satışından daxil olan vəsait və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

7. Xidmət Naxçıvan şəhərində yerləşir.

### II. Xidmətin fəaliyyət istiqamətləri

8. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

8.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

8.2. təbii qazdan səmərəli istifadə edilməsini, qaz təchizatı sisteminin təkmilləşdirilməsini və genişləndirilməsini, qaz təchizatında problemlərin aradan qaldırılması sahəsində çevik təşkilatçılıq göstərilməsini təmin edir;

8.3. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

### III. Xidmətin vəzifələri

9. Xidmət bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

9.1. müvafiq sahədə qanunvericiliklə müəyyən edilmiş hallarda normativ tənzimləməni həyata keçirmək;

9.2. dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

9.3. digər icra hakimiyyəti orqanlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

9.4. qaz təchizatı sahəsində müəyyən olunmuş dövlət siyasətini həyata keçirmək;

9.5. mülkiyyət formasından asılı olmayaraq bütün qaz istehlakçılarını təbii qazla təmin etmək;

9.6. muxtar respublikada təbii qazdan səmərəli və qənaətlə istifadə olunmasına nəzarət etmək;

9.7. istehlakçılara paylanılan qazın dəyərinin maksimum səviyyədə toplanmasına nail olmaq;

9.8. muxtar respublika ərazisində mövcud olan qazpaylayıcı şəbəkələrin saz vəziyyətdə saxlanmasını təmin etmək;

9.9. müvafiq sahə üzrə proqramları hazırlamaq və həyata keçirmək;

9.10. müvafiq sahədə islahatların həyata keçirilməsini təmin etmək, sahənin sosial-iqtisadi inkişafının əsas istiqamətlərini müəyyənləşdirmək, qaz təchizatı sahəsində mövcud norma və qaydalara riayət olunmasını təmin etmək;

9.11. qaz təchizatı üçün avadanlıqların və qaz nəqli qurğularının istismarına nəzarət etmək, qaz qurğularının təmirini təşkil etmək;

9.12. qaz təchizatı obyektlərinin layihələşdirilməsinin dövlət ekspertizasını aparmaq, onları təsdiq etmək;

9.13. qaz təchizatı obyektlərinin vəziyyəti və onlarda fövqəladə hallar yaranarkən ehtimal olunan nəticələrin proqnozlaşdırılması və qiymətləndirilməsində iştirak etmək;

9.14. Xidmətin balansında olan qaz təchizatı sistemlərinin istismarında təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsini təmin etmək;

9.15. qaz təchizatı sahəsində əsaslı tikinti, yenidənqurma, təmir və istismar işlərini yerinə yetirmək;

9.16. kadrların hazırlanmasında və əlavə təhsilində iştirak etmək və onların seçilib yerləşdirilməsini təmin etmək;

9.17. Xidmətdə işçilərin sosial-məişət və əmək şəraitlərini yaxşılaşdırmaq, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat-sanitariya qaydalarına riayət olunmasını təmin etmək;

9.18. qazın nəqli və paylanılmasında itkilərin azaldılması üçün lazımi texniki-təşkilati tədbirlərin işlənib hazırlanmasına və onların yerinə yetirilməsinə nəzarəti təşkil etmək;

9.19. qabaqcıl təcrübə nəzərə alınmaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiq edilməsini təmin etmək;

9.20. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

9.21. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını təmin etmək;

9.22. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

9.23. Xidmətin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

9.24. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

### IV. Xidmətin hüquqları

10. Xidmət öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

10.1. müvafiq sahəyə aid olan qanunvericilik aktlarının layihəsinin hazırlanmasında iştirak etmək;

10.2. qaz təchizatı sahəsində fəaliyyəti təşkil etmək;

10.3. bütün hüquqi və fiziki şəxslər tərəfindən təbii qazdan istifadə qaydalarına və normalarına əməl olunmasına nəzarət etmək, bu norma və qaydaları pozan şəxslərə qarşı qanunvericiliklə nəzərdə tutulmuş tədbirlər görmək;

10.4. təbii qazdan istifadə edən hüquqi və fiziki şəxslərdən qazdan istifadəni yaxşılaşdırmaq üçün müvafiq tədbirlərin yerinə yetirilməsini tələb etmək;

10.5. qaz təchizatı sahəsində planlaşdırılmış təmir-istismar işlərinin aparılması ilə əlaqədar qaz təchizatında yarana biləcək fasilələr haqqında istehlakçılara məlumat vermək;

10.6. təbii qazdan istifadə qaydalarını pozan, qaz avadanlıqlarını, qaz xətlərini zədələyən, mühafizə zonasında müvafiq icazə olmadan tikinti işləri aparan şəxsləri inzibati məsuliyyətə cəlb etmək;

10.7. müvafiq qanunvericiliyin tələblərinə uyğun gəlməyən işlərin dayandırılması barədə müvafiq orqanlar və ya məhkəmə qarşısında məsələ (iddia) qaldırmaq;

10.8. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

10.9. qanunvericiliklə müəyyən edilmiş qaydada xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müsbət təcrübəsini öyrənmək;

10.10. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

10.11. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

10.12. qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

### V. Xidmətin fəaliyyətinin təşkili

11. Xidmətin aparatı və onun strukturuna daxil olan qurumlar və tabeliyində olan digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair) Xidmətin sistemini təşkil edir. Xidmət öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

12. Xidmətin strukturunun təsdiq edilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilir. Xidmətin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

13. Xidmətin fəaliyyətinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Rəis rəhbərlik edir. Rəis Xidmətə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

14. Rəisin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Rəisin müavini ona Rəis tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

15. Rəis:

15.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

15.2. müavinin, habelə Xidmətin digər vəzifəli şəxslərinin ştat, kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

15.3. qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla Xidmətin aparatının strukturuna daxil olan qurumların və tabeliyində olan digər qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) əsasnamələrini (nizamnamələrini) təsdiq edir;

15.4. qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Xidmətin aparatının, qurumlarının ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

15.5. Xidmətin aparatının işçilərini, strukturuna daxil olan qurumların rəhbərlərini, həmçinin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görür, qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir;

15.6. qanunvericiliyə uyğun olaraq icrası məcburi olan əmr və sərəncamlar verir, onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

15.7. Xidmətdə ilkin uçot və hesabatı təşkil edir, hesabat balanslarını təsdiq edir, mühasibat uçotunun və hesabat işlərinin aparılmasına nəzarət edir;

15.8. Xidmətin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

15.9. Xidməti təmsil edir.

16. Xidmətdə Rəisdən (kollegiyanın sədri), onun müavinindən və Xidmətin rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Xidmətin kollegiyasının tərkibinə, həmçinin mütəxəssislər və alimlər də daxil edilə bilər.

17. Xidmətin kollegiyasının üzvlərinin sayı və tərkibi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

18. Xidmətin kollegiyası öz iclaslarında Xidmətin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

19. Xidmətin kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Xidmətin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Xidmətin kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiyanın sədrinin səsi həlledici hesab edilir.

20. Xidmətin kollegiyasının qərarları protokolla rəsmiləşdirilir və Rəis tərəfindən təsdiq edilir.

21. Xidmətin kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda Rəis bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Xidmətin kollegiyasının üzvləri şəxsi fikirlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

22. Xidmətin kollegiyasının iclaslarına zəruri hallarda digər icra hakimiyyəti orqanlarının və təşkilatların rəhbərləri, habelə Naxçıvan Muxtar Respublikasında qeydiyyatdan keçən qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilər.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 8 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin STRUKTURU

1. Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin aparatı (şöbələr və sektorlar).
2. Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin yerli idarələri.

## Gənc əsgərlər hərbi andı qəbul ediblər

Naxçıvan Qarnizonu qoşunlarında andiçmə mərasimləri keçirilib.

Əlahiddə Ümumqoşun Orduda keçirilən mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra gənc əsgərlər Vətənə sədaqət andı içiblər.

Mərasimdə çıxış edənlər gənc əsgərləri təbrik ediblər. Əsgərlər Vətənə sadiq olacaqlarına söz veriblər.

Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılıb. Bildirilib ki, hərbi anda sadiq olmaq hər bir əsgər üçün şərəf, namus və vicdan məsələsidir. Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında keçirilən hərbi andiçmə mərasiminə hazırlıq barədə raport verildikdən sonra hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirilib. Mərasim ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycan torpaqlarının azadlığı uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Sonra gənc əsgərlər hərbi andı qəbul ediblər. Briqada komandiri, general-mayor Səlim Niftalıyev çıxışında qeyd edib ki, bu gün muxtar respublikamızda bütün hərbi hissələr müasir texnika və avadanlıqlarla təchiz edilib, maddi-texniki baza təkmilləşdirilib.

Vurğulanıb ki, hərbi anda sadiq qalmaq hər bir əsgərin müqəddəs borcu olmalı, onlar keçilən dərslərdə bu texnikalardan düzgün istifadəni dərindən öyrənməlidirlər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərovun təbriki şəxsi heyətə çatdırılıb.

Andiçmə mərasimində Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, valideynlər adından isə Elxan Orucov və Teymur Yaqubbəyli çıxış edərək hərbi xidmətin Vətən qarşısında müqəddəs borc olduğunu diqqətə çatdırıb və əsgərlərə nümunəvi xidmət arzulayıblar.

Əsgərlər adından çıxış edən Elmir Namazov onlara göstərilən diqqət və qayğını layiqincə doğruldacaqlarına söz verib.

Həmin gün Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında da andiçmə mərasimləri keçirilib.

Andiçmə mərasimləri şəxsi heyətlərin tribunaların önündən təntənəli keçidləri ilə başa çatıb.

✍ Pərviz HACILI

Ərtoğrol Cavid – 100

# Milli mədəniyyətimizin bilicisi və fədakar təəssübkeşi



*Azərbaycan ədəbiyyatının böyük nümayəndəsi Hüseyn Cavidin nakam övladı, parlaq istedad sahibi Ərtoğrolun şeirə, sənətə, poeziyaya olan vurğunluğu hələ uşaq yaşlarından özünü büruzə verib. O, hələ ikinci sinifdə oxuduğu zaman "Ay" adlı şeir yazmış və bununla diqqət çəkmişdi.*

Ərtoğrol Cavid 1936-cı ildə Vladimir İliç Lenin adına Pedaqoji İnstituta (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) daxil olmuş, 1940-cı ildə isə ali təhsilini uğurla başa vurmuşdu. İnstitutda oxuya-oxuya o, dahi bəstəkar Bülbülün rəhbərliyi ilə fəaliyyət göstərən Musiqi Elmi-Tədqiqat Kabinetində (METK) çalışıb. Hər iki elm ocağı Ərtoğrol Cavidin filoloq-alim, dramaturq, tərcüməçi, musiqişünas və bəstəkar kimi yetişməsinə zəmin yaratmışdı. Əgər ali məktəbdə Ərtoğrol Cavidə ictimai-pedaqoji hərəkatın əsas simaları sayılan Mir Cəlal Paşayev, Əli Sultanlı, Cəfər Xəndan, Məmməd Cəfər, Əkbər Ağayev, Feyzulla Qasımzadə, Əbdüləzəl Dəmirçizadə kimi Azərbaycan elminin klassikləri mühazirələr oxumuşdularsa, musiqi sahəsində də Bülbül, Üzeyir Hacıbəyov, Səid Rüstəmov, Cabbar Qaryağdı, Seyid Şuşinski kimi nəhənglərdən dərs almış, Qara Qarayev, Cövdət Hacıyev, Tofiq Quliyev və başqa parlaq şəxsiyyətlərlə çiyin-çiyinə işləmişdi.

Ərtoğrol Cavid ali təhsilini uğurla başa vurduqdan sonra Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuş (1941) və musiqi təhsilini daha da təkmilləşdirmişdi. Yaradıcılığa "TOƏC" (Türk Oğlu Ərtoğrol Cavid) imzası ilə başlamışdı. Sovet rejiminin tüğyan etməsinə, atasının repressiyaya məruz qalmasına baxmayaraq, Ərtoğrol imzasını dəyişməyərək milli kökə, milli ruha ömrünün sonuna qədər sadiq qalmışdı.

"Göyərçinin naləsi", "Sönük həyat", "Qalibiyyət nəğməsi", "İspan qadının dilindən layla" kimi şeirlərində ömrünün qayğısız günləri və zamanə uyğun gəlməyən bədbinlik notları öz əksini tapıb. Ərtoğrol Cavidin çoxçalarlı yaradıcılığına nəzər salanda görürük ki, onun əsərlərində nəcib əxlaqi keyfiyyətlər öz qabarıq əksini tapır. O keyfiyyətlər Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldırmaq ideyası ilə birləşir.

Ərtoğrol Cavidin əsas amalı xalqını azad, müstəqil görmək idi. Onun bütün yaradıcılığı Azərbaycan xalqının soykökünə bağlılığa, milli azadlığa və müstəqilliyə çağırır. Yüksək mədəniyyətə malik vətənpərvər, humanist, işgüzar, dərin düşüncəli pedaqoq, fədakar mədəniyyət xadimi Ərtoğrol Cavidin vur-tut 24 illik (1919-1943) ömür yolu hər mənada gənclərə nümunə sayıla bilər.

"Etüd", "Uğursuz gecə", "Bir obraz", "Vərəmli qız", "Həyat", "Dostlar", "Professorun ailəsi", "Eqoistin taleyi" kimi əsərlərində ictimai-sosial, mənəvi-əxlaqi məsələlər geniş şəkildə öz əksini tapıb. Ərtoğrol Cavidin 1939-cu ildə tamamladığı və gənclərin maraq dairəsinə sahib olacaq ilk əsəri "Eqoistin taleyi" adlı birpərdəli pyesidir. İlkin variantı "Emirqant, yaxud Vətən qatili" adlandırılan pyesdə müəllif iki qardaşın – Nəcməd və Bəkrinin həyat yolunu təsvir edir.

Böyüməkdə olan gənc nəslin nəcib keyfiyyətlər ruhunda tərbiyə edilməsi, onlara çox kiçik yaşlarından müsbət əxlaqi və mədəni vərdişlər aşılamaq Ərtoğrol Cavidin ən mühüm ideallarından biri olmuşdur. Bu isə onun gənclərə Vətənin, xalqın gələcəyi, istinadgah nöqtəsi, ümid çırağı kimi baxmasından irəli gəlirdi. Ona görə də həssas qəlbli şair-dramaturq Vətən övladlarının tərbiyəsi ilə məşğul olmağı və onlardan gələcəkdə yüksək mənəviyyatlı, saf əxlaqlı şəxslər yetişdirməyi təxirəsalınmaz bir vəzifə kimi irəli sürürdü. Bu işin çətinliyi isə Ərtoğrol Cavidin yaşadığı dövr və qeyri-normal ictimai mühit ilə əlaqədar idi. O, elə bir şəraitdə yaşayırdı ki, bu zaman uşaq və gənclərin milli ruhda tərbiyəsi ilə məşğul olmaq, onlardan Azərbaycan naminə yüksək ideallı şəxslər yetişdirmək prioritet deyildi. Dövr və ictimai quruluş bu işin əleyhinə idi, hadisələr bu baxımdan öz mənfi təsirini göstərirdi.

Ərtoğrol Cavid atasının yolunu tutaraq həmişə ictimai mübarizədə məzlum təbəqələrin tərəfində olmuşdu. Onda zəhmətkeş kütlələrə dərin rəğbət, Vətənin mütərəqqi qüvvələrinə böyük inam, başqa xalqların mədəni nailiyyətlərini yüksək qiymətləndirməklə yanaşı, xalqı əzən yadlara qarşı dərin nifrət hissi çox güclü idi. Ərtoğrol Cavidin vətənpərvər qayəli əsərlərinin pedaqoji cəhətdən tədqiqi və təhlili sübut edir ki, onun vətənpərvərlik ideyaları zorakılığa, istismara, ədalətsizliyə, cəhalətə, nadanlığa qarşı çevrilmiş doğma Vətənin, xalqın taleyi ilə bağlı olan vətənpərvərlik duyğularıdır.

Hüseyn Cavid "Həsb-hal" əsərində yalnız öz ambisiyalarına xidmət edənləri "buqələmun" adlandırırdı. O yazırdı ki, belə buqələmunlar "Araz kənarına varır-varmaz bir kərə düşünər, hər şeydən əvvəl, özü üçün bir sərmayə arar... İşi yoluna qoyduqdan sonra həmiyyət, qeyrət qanı coşub-daşaraq qızğın, dəhşət-nak nitqlər söyləməyə başlar, işte kiçicik bir nümunə: "Cəmaət, cəmaət! Vətən, məmləkət xərab oldu". Göründüyü kimi, əxlaq tərbiyəsindən bəhs edərkən Ərtoğrol Cavid atasının yaradıcılığındakı ideya və amalı üstün tutaraq öz əsərlərində də acgözlüyü, mənsəbpərəstliyi, fərdiyyətçiliyi, riyakarlığı və digər mənfur cəhətləri kəskin tənqid etmişdir.

Ərtoğrol Cavidin folklor mədəniyyəti ilə bağlı araşdırmaları da olduqca təqdirəlayiqdir. O, doğulduğu yurdun el adət-ənənələrini, mədəniyyət nümunələrini, xalq nağıllarını, musiqisini "Xalq poeziyasında yeni mündəricə", "Müdafiə tematikası", "Koroğlu" dastanı haqqında", "Muqum şah" nağılının təhlili" kimi məqalələrində diqqət mərkəzinə çəkmişdi. Rəşid Şəfəq "Şimşək ömrü" adlı məqaləsində ("Mədəniyyət" qəzeti, 25 aprel 1991-ci il) qeyd edir ki, "Ərtoğrol Cavid vaxtilə 200-dən artıq el havasını və xalq mahnısını toplayıb çapa hazırlamışdı. Əfsus ki, onlar işıq üzü görmədi".

Müştərək işlənərək yığılan və tərtib edilən atalar sözləri, almanaxlar, xalq musiqisi notları kitab halına salınaraq nəşr olunan zaman isə Ərtoğrol Cavidin adının orada verilməsi ya "unudulmuş", çıxarılmış, yaxud da silinmişdir. Çünki kitablara "xalq düşməni"nin oğlunun adının yazılması kimlər üçünsə təhlükə doğura bilərdi. Əlbəttə, bütün təhlükələri göz önünə alaraq Ərtoğrol Cavidə mənəvi və maddi dəstək göstərən Əziz Şərif, Rəsul Rza, Mir Cəlal Paşayev, Əli Sultanlı, Bülbül, Üzeyir Hacıbəyov, Məhəmməd Tağı Sidqi kimi böyük şəxsiyyətlər də olmuşdur.

Ərtoğrol Cavid həm də rəssamlıq sənətinə yiyələnmişdi. İşıq və kölgə tənasübü, kolorit ustalığı, nikbin və sağlam ruh onun fırçasında öz dolğun əksini tapmışdır. Bu gün Hüseyn Cavidin ev-muzeyində qorunan Mişkinaz Cavidin portreti ona məxsusdur. Bununla yanaşı, gürcü aktrisası Nata Vaçnadzenin, güləşçi Verderin, həmçinin Şekspirin, Bethovenin, Abbas Mirzə Şərifzadənin canlandırdığı "Şeyx Sənan" və "İblis" surətləri Cavidlər ailəsində yetişən bu böyük istedadın fırçaya bələdliyinin aşkar təsdiqidir.

Ərtoğrol Cavid bu gün də ədəbiyyatımızda, musiqişünaslığımızda, eləcə də rəssamlıq sənətimizdə özünəməxsus yer tutur. Onun şəxsiyyətini və irsini diqqət mərkəzində saxlayan dövlətimiz, ümumilikdə, Cavidlər irsinin qorunması, yaşadılması, öyrənilməsi məqsədilə paytaxt Bakıda və Naxçıvanda Hüseyn Cavidin ev-muzeylərini yaradıb. Naxçıvan Muxtar Respublikasında Ərtoğrol Cavid şəxsiyyəti uca tutularaq onun adı musiqi və bədii sənətkarlıq məktəblərindən birinə verilib, Hüseyn Cavidin ev-muzeyində zəngin irsindən nümunələr toplanıb. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı 2019-cu il 18 aprel tarixli Sərəncama əsasən onun 100 illik yubileyi muxtar respublikamızda geniş şəkildə qeyd olunur. Bu mühüm dövlət sənədi haqsız təqiblərə məruz qalmış, repressiyaya uğramış ulu Cavidin ailəsinə göstərilən diqqət və qayğının ifadəsidir.

**Kamal CAMALOV**
*Naxçıvan Müəllimlər İnstitutunun dosenti, Əməkdar müəllim*

# XI Avropa çempionatından uğurla dönən karateçilərimiz mükafatlandırılıb



Makedoniyanın Skopye şəhərində keçirilən karate-do üzrə XI Avropa çempionatında uğurla çıxış edən idmançılarımız Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası tərəfindən mükafatlandırılıb.

Bu münasibətlə keçirilən tədbirdə Karate-do Federasiyasının sədri Fazil Ələkbərov idmançılarımızı əldə etdikləri uğur münasibəti ilə təbrik edib. Çıxışda vurğulanıb ki, bu uğurun nəticənin qazanılmasının əsas səbəblərindən biri muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, idman sahəsində də yaradılan hərtərəfli şərait, zəngin maddi-texniki baza, müasir idman infrastrukturudur.

Diqqətə çatdırılıb ki, son illər yeniyetmə və gənclərin bu idman növünə olan maraqları daha da artıb. Xüsusilə də qızların karate idman növünə cəlbi istiqamətindəki tədbirlərin bundan sonra da diqqətdə saxlanılacağı qeyd edilib.

Federasiya sədri yaradılan hərtərəfli şəraitə, göstərilən diqqət və qayğıya görə federasiya üzvləri, eləcə də idmançılar və onların valideynləri adından Ali Məclis Sədrinə minnətdarlığını bildirib.

Sonra Federasiyanın sədr müavini Nəriman Quliyev çıxış edərək Makedoniyanın Skopye şəhərində təşkil edilən XI Avropa çempionatı barədə məlumat verib. Bildirilib ki, həmin çempionatda ölkəmizi 190 karateçi təmsil edib ki, onlardan da 7-si muxtar respublika idmançısı olub. Naxçıvan idmançılarının çempionatdan 5 qızıl, 2 gümüş və 11 bürünc olmaqla, ümumilikdə, 18 medalla Vətənə qayıtmaları mühüm idman hadisəsidir.

Valideynlər adından Elmar Həsənov, Anar Hüseynov və Loğman İsmayılov, idmançılardan isə Vüsal Seyidov çıxış edərək muxtar respublikamızda idmana və idmançılara göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildiriblər.

Sonda muxtar respublikamıza uğurlu nəticələrlə dönən karateçilərimizə federasiyanın hədiyyələri təqdim edilib, xatirə şəkli çəkdirilib.

**Ceyhun MƏMMƏDOV**

# Naxçıvan Qarnizonu qoşunları əməliyyat təlimində iştirak edir

Azərbaycan Ordusunda başlayan əməliyyat təlimində Naxçıvan Qarnizonu qoşunları da iştirak edir. Bu çərçivədə Naxçıvan Qarnizonu qoşunlarının birləşmə və hissələri aidiyyəti üzrə sərəncam qaydasında qaldırılaraq müvafiq döyüşə hazırolma dərəcəsinə gətirilib.



Üç mərhələdə icra ediləcək təlimdə birinci eşelon bölmələrinin şərti düşmənin qəfil hücumlarının dəf edilməsi üzrə fəaliyyətləri, birlik, birləşmə və hissələrin idarəetmə orqanlarının ərazidə açılması və idarəetməni öz üzərinə götürməsi, səfərbərlik ehtiyatlarından döyüş hazırlığını təyin edən mütəxəssislərin və texnikaların qismən qəbulunun təşkili, ümumqoşun, tank, desant və diversiya əleyhinə ehtiyatların döyüş atışlı taktiki təlimdə praktik fəaliyyətlərinin məşq etdirilməsi planlaşdırılır.

**Nəriman NƏCƏFOV**

# Növbəti interaktiv dərs keçilib

*AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Naxçıvan Tunc dövründə" mövzusunda interaktiv dərs təşkil olunub.*

İnteraktiv dərsi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Antik və orta əsrlər arxeologiyası şöbəsinin müdiri, dosent Toğrul Xəlilov aparıb.



Bildirilib ki, son dövrlərdə muxtar respublikamızda aparılan arxeoloji qazıntılar göstərir ki, Erkən Tunc dövrünün tarixi Naxçıvanda daha qədimdir. Bu tədqiqatlara əsasən Naxçıvan diyarında Kür-Araz mədəniyyətinin üç mərhələyə bölündüyü müəyyən olunub. Dərsdə həmin tarixi mərhələlər haqqında məktəblilərə ətraflı məlumat verilib.



Vurğulanıb ki, iqtisadiyyatın intensiv inkişafı, xüsusilə sənətkarlıq məmulatının artması və ticarət əlaqələrinin genişlənməsi qədim şəhərlərin formalaşmasına da şərait yaradıb. Eramızdan 5000 il əvvəl Naxçıvanda şəhərsalma mədəniyyəti mövcud olub. Bu tip yaşayış yerlərindən biri olan II Kültəpədə aparılan qazıntılar zamanı şəhər mədəniyyəti üçün xarakterik olan mühüm əlamətlər aşkar olunub. Qeyd olunan faktlar sonda onu deməyə əsas verir ki, tarixin canlı şahidi olan, onun daş yaddaşına çevrilən Tunc dövrü abidələrimizin hər biri Azərbaycan arxeologiyasında özünəməxsus yer tutur və mühüm elmi əhəmiyyət daşıyır.

Slayd vasitəsilə keçilən dərsdə tədqiqatlar zamanı əldə olunmuş nəticələr şagirdlərin diqqətinə çatdırılıb.

Dərs muxtar respublikanın 200-dən çox ümumtəhsil müəssisəsində izlənilib.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Tələbələr istehsalat təcrübəsinə başlayıblar



*"Naxçıvan" Universitetində İqtisadiyyat və İdarəetmə fakültələrinin əyani şöbəsinin IV kurs tələbələrinin 2019-2020-ci tədris ilinin payız semestrində keçəcəkləri istehsalat təcrübəsinə həsr edilmiş başlanğıc konfransı olub.*

Konfransı giriş sözü ilə universitetin prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu açaraq istehsalat təcrübəsinin əhəmiyyətindən və təcrübə qaydalarından danışaraq tələbələrə uğurlar arzulayıb.

Konfransda İdarəetmə fakültəsinin dekanı Naim Cahidzadənin, İqtisadiyyat fakültəsinin dekan müavini Vaqif Hüseynovun növbəti istehsalat təcrübəsinin keçirilməsinə dair çıxışları dinlənilib.

Qeyd olunub ki, 93 tələbə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində, Maliyyə və İqtisadiyyat nazirliklərində, Turizm Departamentində, Dövlət Miqrasiya Xidmətində 7 həftəlik təcrübə keçəcəklər.

Sonda çıxış edən tədris hissə müdiri Anar Abuzərli istehsalat təcrübəsinin keçirilmə qaydaları haqqında məlumat verib.

**Seyfur HACIMURADOV**

*Ailə təsərrüfatları bu gün iqtisadi baxımdan inkişaf edən dünya ölkələrində ən çox yayılmış biznes modelidir. Dünya iqtisadi təcrübəsində çoxdan özünü təsdiq etmiş bu modelin tətbiqi muxtar respublikamızda da özünün yeni inkişaf mərhələsini yaşayır. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatının inkişafı ilə bağlı Tədbirlər Planı" bu istiqamətdə atılmış mühüm addımdır.*

"Ailə təsərrüfatları ili" – 2019

# Həyata keçirilən tədbirlər ailə təsərrüfatlarının fəaliyyətinə yeni imkanlar açıb





Bu sahədə görülən işlərin nəticəsidir ki, son üç il ərzində muxtar diyarımızda yüzlərlə yeni ailə təsərrüfatları formalaşmış, bu təsərrüfatların hərtərəfli fəaliyyəti üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Belə ki, ailə təsərrüfatlarının biznes planları tərtib edilir, təsərrüfat sahiblərinə güzəştli şərtlərlə kreditlər, müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqları verilir, istehsal olunan məhsulların satışı üçün əlverişli şərait yaradılır. Dövlət dəstəyi nəticəsində ailə təsərrüfatları məhsullarının qablaşdırma və dizaynlarının tərtib olunması, onların taralarla təchiz edilməsi məhsulun bazara və istehlakçılara marketinq qaydalarına uyğun olaraq çatdırılmasına imkan verir. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi, Ali Məclis Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın təsdiq olunması ailə təsərrüfatlarının fəaliyyəti üçün geniş imkanlar açmışdır.

Biznesin bütün sahələrində olduğu kimi, ailə təsərrüfatlarının fəaliyyətində də zəncirin son halqası satışdır. Çünki satış çəkilən zəhmətin müqabilində ailə üzvlərinə öz dolanışıqlarını təmin edəcək vəsait, fəaliyyətin davamlılığını şərtləndirən stimuldur. Buna görə də ailə təsərrüfatı məhsullarının geniş alıcı kütləsinə tanıdılmasında mümkün metodların hər birindən istifadə olunmasının öz əhəmiyyəti var. Bu metodların tətbiqi kimi artıq üç ildir, muxtar respublikada təşkil olunan "Ailə təsərrüfatı məhsulları" festivallarını, həftə sonları rayon mərkəzləri və Naxçıvan şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarını və ərzaq məhsullarının satışını həyata keçirən ticarət obyektlərində yaradılmış xüsusi bölmələri göstərə bilərik. Digər tərəfdən, təsərrüfat sahibləri arasında təcrübə mübadiləsinin aparılması da bu sahənin inkişafına öz müsbət təsirini göstərən amillərdəndir. Elə buna görə də cari ilin may ayında Ordubad rayonunda fəaliyyət göstərən ailə təsərrüfatlarının iş təcrübələrinin muxtar respublikada geniş tətbiq edilməsi ilə əlaqədar rayon mərkəzində tədbir keçirilib. Tədbirdə muxtar respublikanın rayonlarının 167 qabaqcıl ailə təsərrüfatı başçısının iştirakı təmin edilib. Ordubadda istehsal olunan məhsulların tədbir iştirakçılarına təqdim edilməsi, ailə təsərrüfatları başçılarının bir-birləri ilə təcrübə mübadiləsi aparmaları öz töhfəsini verməkdədir.

Muxtar respublikada "Ailə təsərrüfatı məhsulları" festivallarının rayonlar üzrə təşkili də məxsusi əhəmiyyət daşıyır. Belə tədbirlər ailə təsərrüfatlarına həm rayonda daha çox tanınma, həm də məhsul çeşidlərində yenilikləri tətbiq etmək baxımından sərfəlidir. Məsələn, hamımıza məlumdur ki, aqrar sektor, ümumilikdə, muxtar respublikamızın bütün rayonlarına uyğun olsa da, hər bir bölgənin özünəməxsus məhsulları və ya eyniadlı məhsulun digər rayonlarla müqayisədə spesifik xüsusiyyəti daha ön planda olanları var. Kükü alması, Qarabağlar soğanı və kəklikotusu, Şahtaxtı qovunu, Daşarx şaftalısı, Sədərək üzümü və daha neçə belə məhsul növü var ki, bu məhsullar muxtar respublikanın hər bir bölgəsində mövcuddur. İstehlakçılar eyni məhsul arasında seçim edərkən daha çox həmin məhsulun yetişdirildiyi coğrafi ərazinin adına üstünlük verirlər. Eyniadlı və eynikeyfiyyətli məhsulların daha çox satışı isə təsərrüfat sahiblərini müəyyən yeniliklər etməyə (fərqli qablaşdırma, ticari görünüş, qiymətdə güzəşt və sair) məcbur edir. Bunu müəyyən mənada daxili rəqabət kimi də qiymətləndirmək olar. Digər tərəfdən, rayonlarda keçirilən belə festivallar məhsul istehsalçılarına bazara çıxmaq üçün daha az nəqliyyat xərci çəkmələrinə imkan verir, eləcə də alıcılar üçün gedişgəliş baxımından sərfəli olur. Unutmaq olmaz ki, rayonlarda təşkil olunan belə tədbirlər, həm də ailə təsərrüfatı sahiblərinin bir-birini daha yaxından tanıması, müəyyən təcrübi müzakirələrin aparılması üçün ideal görüş yeri, həm də festival təcrübəsi qazandıran "sınaq meydanı"dır. Yeri gəlmişkən, bunu da vurğulayaq ki, festival tədbirləri hər zaman yeniliklər tələb edir. Dünyanın hər yerində belədir: eyniadlı festival hər il eyni məkanda keçirilsə də, tədbirlərin maraqlı olması üçün dəyişikliklər qaçılmazdır. Bu dəyişikliklər isə əsasən, satış prosesini daha maraqlı bir əyləncəyə çevirməklə əldə olunur. Elə festival və satış yarmarkalarının xüsusiyyəti də ondadır ki, burada əyləncə, milli dəyərlərin təbliği daha ön planda olur. Sevindirici haldır ki, artıq muxtar respublikamızın müxtəlif rayonlarında da – Ordubad, Şahbuz, Sədərəkdə də "Ailə təsərrüfatı məhsulları" festivalları təşkil edilib.

Bu tədbirlərin davamı olaraq noyabrın 8-də Kəngərli rayonunda da "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib. Tədbirin aparıcıları muxtar respublikamızda ailə təsərrüfatlarının inkişaf tarixi və bu sahədə görülən işlər barədə məlumat veriblər.

Qıvraq qəsəbəsindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında təşkil edilən tədbirdə rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələri iştirak ediblər.

Festivala 70-ə yaxın ailə təsərrüfatı sahibi tərəfindən 195 adda 4 min 200 qablaşdırılmış müxtəlif məhsullar çıxarılıb. Mövsümə uyğun olaraq müxtəlif növ mürəbbə və şirniyyatlar, qovurma, pendir, qatıq, cəviz, badam, təbii meyvə şirələri, üzümdən hazırlanmış şərab, meyvə araqları, eləcə də turşular, kompotlar, quru meyvələr, dərman bitkiləri və meyvə-tərəvəz məhsulları iştirakçılara təqdim olunub. Ailə təsərrüfatçıları onlar üçün yaradılan şəraitə görə minnətdarlıqlarını bildirib, bundan sonra daha çox məhsul istehsal edəcəklərini söyləyiblər.

Rayonun mədəniyyət kollektivlərinin ifa etdikləri rəngarəng musiqi nömrələri, qədim xalq rəqsləri tədbir iştirakçılarına xoş ovqat bəxş edib.

Bütün bu qeyd olunanlar bir daha onu deməyə əsas verir ki, ailə təsərrüfatlarına göstərilən dövlət dəstəyi bu təsərrüfat fəaliyyəti ilə məşğul olanların qarşısında yeni imkanlar açır.

✍ Səbuhi HƏSƏNOV

## Naxçıvan Muxtar Respublikası üzrə 12 noyabr 2019-cu il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 1513,0 | 1407,0 | 106,0 |
| 2. | Babək rayonu | 7224,0 | 5040,0 | 2184,0 |
| 3. | Ordubad rayonu | 659,0 | 270,0 | 389,0 |
| 4. | Culfa rayonu | 3359,0 | 2780,0 | 579,0 |
| 5. | Kəngərli rayonu | 4002,0 | 2542,0 | 1460,0 |
| 6. | Şahbuz rayonu | 697,0 | 697,0 | - |
| 7. | Sədərək rayonu | 1232,0 | 890,0 | 342,0 |
| 8. | Naxçıvan şəhəri | 581,0 | 515,0 | 66,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **19267,0** | **14141,0** | **5126,0** |

# Veteran futbolçulardan ibarət "Araz-Naxçıvan" və "Azərbaycan" komandaları arasında yoldaşlıq görüşü keçirilib



9 Noyabr – Dövlət Bayrağı Gününə həsr olunan oyun Naxçıvan Muxtar Respublika Stadionunda keçirilib. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri, Naxçıvan Futbol Federasiyasının sədri Azad Cabbarov oyundan öncə veteran futbolçularla görüşüb. Ölkəmizdə, eləcə də muxtar respublikada idmanın bütün sahələrinə olduğu kimi, futbola da xüsusi önəm verildiyini bildirən Gənclər və İdman naziri bölgədə futbolun yüksəlişi üçün dövlətimizin dəstəyi ilə məqsədyönlü addımlar atıldığını diqqətə çatdırıb.

Veteran futbolçuları burada görməkdən çox məmnun olduğunu ifadə edən Azad Cabbarov onlara Azərbaycan futbolunun inkişafındakı xidmətlərinə görə minnətdarlıq edərək dostluq görüşündə uğurlar arzulayıb.

Sonra oyuna start verilib. İlk hissədə azarkeşlər maraqlı oyun izləsələr də, hər iki tərəfin qol cəhdləri bəhrəsiz qalıb. İkinci hissədə hücumların kəsərini artıran futbolçularımız azarkeşləri sevindiriblər. Azərbaycan millisinin heyətindən İlham Yadullayev ilk qolun müəllifi olub. Görüşün sonlarında "Araz-Naxçıvan"dan Yunis Məhərrəmovun vurduğu qol yekun nəticəni müəyyən edib. Qarşılaşma 1:1 hesablı bərabərliklə yekunlaşıb.

Oyundan sonra veteran futbolçular təəssüratlarını "Şərq qapısı" qəzeti üçün məmnuniyyətlə bölüşdülər.

***Oqtay Abdullayev – Azərbaycan Futbol Veteranları İttifaqının sədri:*** – Uzun müddətdən sonra Naxçıvana səfər etmək, burada meydana çıxmaq gözəl hissdir. Bildiyiniz kimi, vaxtilə "Araz" komandasının da heyətində çıxış etmişəm. Ona görə də bu meydan mənə doğmadır. Bu gün keçmiş komandama qarşı meydana rəqib kimi çıxmışdım (gülür). Ancaq bu veteran futbolçularımız arasında yoldaşlıq, dostluq görüşü idi. Oyun bu baxımdan da mühüm əhəmiyyət kəsb edirdi.



Muxtar respublikanın qədim futbol ənənələri var, bu ənənələri inkişaf etdirdiyinə, veteranları daim diqqətdə saxladığına görə muxtar respublika rəhbərinə minnətdarlığımızı bildiririk. Belə oyunlar nə qədər çox olarsa, bir o qədər yaxşıdır.

***Maşallah Əhmədov – veteran futbolçu:*** – Qədim Azərbaycan torpağında aparılan işlər məni, sözün həqiqi mənasında, təəccübləndirdi. Biz "Araz"da oynadığımız vaxtla müqayisədə Naxçıvan inanılmaz şəkildə dəyişib. Naxçıvan mənim xatirəmdə həmişə gözəl anlarla yadda qalıb. Burada oynadığım vaxt azarkeşlərin bizə davranışı, insanların qonaqpərvərliyi haqqında hər zaman ürəkdolusu danışıram. Dekabr ayının 16-da mənim 60 illik yubileyimdir. Bununla bağlı sənədli film hazırlanır. Çox sevindirici haldır ki, məhz filmin böyük bir hissəsi Naxçıvanda çəkilir. Artıq bu oyundan öncə müəyyən kadrlar lentə alınıb və oyundakı bəzi kadrlar da filmə daxil ediləcək. Yoldaşlıq görüşünə gəlincə, mən ilk olaraq təşkilatçılara çox sağ ol demək istəyirəm. Çünki meydana çıxarkən biranlıq da olsa, keçmiş günlərimizə qayıtdıq. Eyni zamanda naxçıvanlı veteran futbolçuları, keçmiş komanda yoldaşlarımızı görmək xoş oldu.



***Hüseyn Məhəmmədov – veteran futbolçu:*** – Qeyri-təvazökarlıq kimi çıxmasın, "Araz"ın heyətində ən böyük uğura imza atan futbolçu mən olmuşam. Müstəqillik illərində



komandanın çempion olan heyətində yer almaq, doğrudan da, qürurvericidir. Digər tərəfdən, mənim oğlum da iki mövsüm öncə bu komandada ənənəni davam etdirərək çempion olub. Doğrudan da, Naxçıvan bizim döyünən ürəyimizdir. Son zamanlar burada futbolun inkişaf etməsi, insanların bu növə marağının artması və kütləviliyin təmin edilməsi sevindirici haldır. Çünki Naxçıvandan hər zaman istedadlı, təcrübəli futbolçular çıxıb. Keçirilən oyun məni 7-8 il öncəyə apardı. Azarkeşlər qarşısında o zaman keçirdiyim hiss-həyəcanı yenidən yaşamaq mənə qürur verir. Bir daha bu oyunun təşkilatçılarına, bizi bura dəvət edənlərə minnətdarlığımı bildirirəm.



***Rüstəm Rəhimov – Əməkdar idman xadimi, veteran futbolçu*** – Hazırda Naxçıvanda futbolçular üçün çox gözəl şərait yaradılıb. Burada mütəmadi olaraq Azərbaycanın, eləcə də Naxçıvanın futbol federasiyaları tərəfindən seminarlar, məşqçi kursları təşkil edilir. Bu, idman siyasətinin düzgün yolda olduğunu və Naxçıvanda futbolun inkişafından xəbər verir. Biz veteran futbolçular isə istəyirik ki, təcrübəmizi gənclərə ötürək. Naxçıvanı gəzmək imkanımız da oldu. Bu diyarın qısa vaxt kəsiyində nə qədər inkişaf etdiyini gördük. Belə oyunların keçirilməsi yaxşı haldır. Həm veteranlar keçmiş komanda yoldaşları ilə görüşür, həm də azarkeşlərə nostalji hisslər yaşadır. Gələcəkdə belə tədbirlərin davam edəcəyinə, veteran futbolçuların meydanda yenidən üz-üzə gələcəyinə əminəm.

✍ Ceyhun MƏMMƏDOV

**İtmişdir**

Yaqubov Siyavuş Yunis oğlunun adına olan 0034962 nömrəli çıxarış və 104013007899 reyestr nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 783